# Biz nöqtə yox, nida qoyduq, Bu, Qələbə nişanıdır!!!



Musa ƏLƏKBƏRLİ

### Sən elə yoldasan...

Bu yurd davasıdır, Vətən savaşı,
Özünü od kimi yetirməlisən.
Yolunda tirlənmiş bu ağır daşı
Necə olur-olsun, götürməlisən!

Qələbə havası gəzsin başında,
Qəlbində boy versin əzəmət, qürur.
Bu elə savaş ki, indi qarşında
"Ya olum, ya ölüm" amacı durur.

Gör hansı müqəddəs yolu gedirsən,
Dünyada hər şeydən ümdə Vətəndi.
Sən öz torpağını xilas edirsən
Arxa da Vətəndi, ön də Vətəndi.

Otuz il qoynunda kef çəkib yağı,
Qoy bu əsir dağlar tüğyana gəlsin.
Kəsilsin bu yurddan düşmən ayağı
Torpaq nəfəs alsın, yer cana gəlsin.

Bezmişik gileydən, amandan, ahdan,
İllərdi bu odda yanan əlim var.
Öldürmək eşqiylə yapış silahdan,
Onsuz da yolunda bir gün ölüm var!

Vətən bizim üçün evdi, ocaqdı,
Qeyrətdi, namusdu, şərəfdi, oğul.
Yolun haqq yoludu, bu döyüş haqdı,
Bu tanrıdan gələn tələbdi, oğul!

Düşmənin üstünə tufantək çöküb,
Xalqının gözündə ucalmalısan.
Qartaltək dağlarda bir qıyya çəkib,
Yerdən də, göydən də güc almalısan!

Vətəndi qarşıda, vətəndi öndə,
Qəlbində boy versin əzəmət, qürur.
Arxanda qardaş var, bu ağır gündə
Qardaşın qardaşlıq sınağı durur.

Qurtar məmləkəti, yurdu bəladan,
Düşmən nə düşməndi, yaxşı halısan.
Bir örnək götürüb Çanaqqaladan
Türkün türk adını doğrultmalısan!

Alışdınsa sönmə, yarımçıq sönmək
Sinəmin yer-yerdən dağlanmağıdı.
Sən elə yoldasan geriyə dönmək
Bütün yollarımın bağlanmağıdı!

### İndi hamı Vətən deyir...

*Azərbaycan prezidenti, Ordumuzun Ali Baş Komandanı cənab İlham Əliyevin xalqa müraciətini dinləyərkən*

Həqiqətin belə anı
Olmamışdı otuz ildə.
Əmrinizlə baş tutacaq
Haqq divanı
Olmamışdı otuz ildə.
Qarabağda ordumuzun
Nuh tufanı
Olmamışdı otuz ildə.
"Lazım gəlsə" sözünüzün
Sərt qayəsi danılmışdı.
Şuşamızda yallı gedən
Paşiyanlar yanılmışdı.
Sülh deyəndə,
Qarşınıza yeddi dənə
tələb qoydu
nankor dığa.
Sizin bircə tələbiniz
Yerə-göyə səda saldı
Bu acığa!
"Düşmən çıxsın Qarabağdan
Onun ayrı yolu yoxdu.
Tutulubdur hər tərəfi,
Sağı yoxdu, solu yoxdu!
Korlasa da havamızı,
Havadarsız qalıb yağı.

Biz almışıq,
alacağıq Qarabağı.
Bütövlüyü
qayıdacaq bu torpağın!!!
Haqq bizdədir,
güc bizdədir,
Boş nağıllar bitdi daha,
ATƏT-in həmsədrləri
Tarixin boz arxivinə
getdi daha.
BMT-in qətnaməsi
Ordumuzun gücü ilə gəlir başa.
Daha bizə gərək deyil,
O qurulan, qurdurulan boş tamaşa!
Yetdi artıq,
Bu oyunlar, bitdi artıq!
Mən xalqımın yanındayam,
Ruhundayam, canındayam!
Onun birlik
amalıyam,
Əsir qalan torpağını
Mütləq geri almalıyam!
Söz qətidir,
Bu tarixin bizim üçün
Bəlkə də son fürsətidir!"
...Ey ali baş komandanım,
Sənin qəti tələbinlə
Boy göstərir şərəf-şanım!
Yumruq kimi birləşmişik
Sən xalqdasan,
xalq səndədir,

Bu dünyanın
gözü indi
Qoruduğun Vətəndədir!
Sənin məğrur qətiyyətin
Qələbənin ilk sorağı.
Doğrultmusan bu inamı,
Ucaltmısan bu bayrağı!
Ürəyimin al qanından
Mayalanır indi şeir,
Bu gün heç kəs "mən", "sən" demir
İndi hamı Vətən deyir!
Tökülsə də insan qanı
Torpağımız qucağında
Yad, yabancı bitirməsin.
Belə saxla sən sükanı,
Vətən birlik amacını
Qoy heç zaman itirməsin!

### Axır ki qalmadı nahaq qan yerdə...

Çökdü ömrümüzə su aydınlığı,
Günəş şəfəqiylə yu aydınlığı.
Tanrım, özün qoru bu aydınlığı
Köçkünüm yurduna qovuşan yerdə.

Üçrəngli bayrağım Suqovuşanda
Bir coşqu yaratdı ürəkdə, canda.
Ordum, səninkidir şərəf də, şan da
Şuşam təhlükədən sovuşan yerdə.

Şahinim, misli yox bu uçuşların,
Bu müjdə soraqlı açılışların.
Didərgin, hərəsan, perik quşların
Doğma yuvasına yovuşan yerdə.

Yəqin çatdı sənə harayı, ünü,
Xalqıma bəxş etdin, Allah, bu günü.
Göylərin dumansız açıb köksünü,
Elə bil qurulub toy-nişan yerdə.

Düşmənin başında tufanam indi,
Yurdboyu kükrəyən ümmanam indi,
Şəhidim, ruhuna qurbanam indi,
Axır ki qalmadı nahaq qan yerdə!!!

### Qələbə deyir

Ali baş komandan, döyüş əmrinə
Yaxın da, uzaq da Qələbə deyir.
Millət qovuşubdur imana, dinə
Böyük də, uşaq da Qələbə deyir.

Qarabağ qılınctək sıyrılıb qından,
Durmaz, geri durmaz döyüş haqqından.
Üzülüb xaindən, milli satqından
Doğma da, sıcaq da Qələbə deyir.

Uğrunda keçirsə şirin canından,
Vətən cana gəlir şəhid qanından.
Əsir torpaqların bu üsyanından
Od alan ocaq da Qələbə deyir!

Bir səda hökm edir şəhərə, köyə,
Millət ayaqdadır "Qarabağ" deyə.
Düşmənin külünü sovurur göyə,
Avto da, uçaq da Qələbə deyir.

Bu kəlmə od tutub ağızda, dildə,
Təşnəlik yaşadıb obada, eldə.
Dəli bir coşğuyla kükrəyir sel də,
Bulaq da, irmaq da Qələbə deyir.

Bu səda yansıyıb çiçəyə, gülə,
Səs çatıb Şuşada Xarıbülbülə,
Payız dumanında bürünüb tülə,
Çiçək də, yarpaq da Qələbə deyir.

Dözüb bu dözülməz ağrıya, cəbrə,
Nəhayət dikəlib son dedik səbrə.
Çatıb mesajımız şimala, qərbə,
Nidamız dodaqda Qələbə deyir!

Qəti son döyüşə girib ordumuz,
Bir qürur yaşayır ana yurdumuz.
Çəkilib göylərə qara-qorxumuz,
Səma da, torpaq da Qələbə deyir!

### Biz nöqtə yox, nida qoyduq

*"İndi həqiqət anıdır"*

**İlham ƏLİYEV**
*Azərbaycan prezidenti, Ordumuzun Ali Baş Komandanı*

Yalanlardan bezdik daha,
"İndi həqiqət anıdır".
Haqq qələbə, şah qələbə
Birbaşa sözün canıdır.

O günahsız şəhidlərin
Dəryalardan dərdi dərin.
Qoy ağzını yumaq şərin,
Öc almağın zamanıdır.

Dağlarımız düşüb əsir,
Bitməlidir bu kəm-kəsir.
Qarabağda tufan əsir,
Ordumuzun tufanıdır!

Əl-qol atma soldan, sağdan,
İştahanı çək o dağdan.
Yağı, rədd ol Qarabağdan,
Azərbaycan məkanıdır!

Pozub düşmən alayını,
Qanla boğub halayını.
Torpağımın haqq-sayını
Xalqım dünyaya tanıdır.

Bəsdi daha cana doyduq,
İçimizi içdən oyduq.
Biz nöqtə yox, nida qoyduq,
Bu, Qələbə nişanıdır!!!